# R Ə Y

**I. Dəbbə pulu anlayışının mahiyyəti.** MM-in 462.1-ci maddəsində dəbbə pulunun qanuni tərifi belə verilmişdir: "*Dəbbə pulu (cərimə, penya) müqavilə ilə müəyyənləşdirilən, öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda borclunun kreditora ödəməli olduğu pul məbləğidir*". MM-in 462.2-ci maddəsinə görə, "*Əgər borclu öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyət daşımırsa, kreditor dəbbə pulunun ödənilməsini tələb edə bilməz*".

Yuxarıda qeyd olunan normalara əsasən "dəbbə pulu"nun mövcudluğunun qəbul oluna bilinməsi üçün aşağıdakı şərtlərin hamısının gerçəkləşmiş olması lazımdır:

1- Dəbbə pulu, müəyyən bir ***öhdəliyin pozulması halları üçün*** nəzərdə tutulmalıdır

2- Dəbbə pulu, borclu öhdəliyin pozulmasından məsuliyyət daşıdığı hallarda tələb oluna bilər

3- Dəbbə pulu, yalnız müqavilə ilə nəzərdə tutulan hallarda ola bilər,

Dəbbə pulu, müqavilə ilə razılaşdırılmış cərimə olduğuna görə, borclu tərəfindən öhdəliyin təqsirli olaraq pozulması nəticəsində kreditor zərərə məruz qalmasa belə, yenə də kreditor müqavilə əsasında dəbbə pulunun ödənilməsini tələb edə bilər. Yəni müqavilədə nəzərdə tutulan dəbbə pulunun ödənilməsini tələb edə bilmək üçün müqavilə öhdəliyinin borclunun cavabdeh olduğu bir səbəblə pozulması zəruri və kafidir.

Beləliklə, yuxarıda qeyd olunan xüsusiyyətləri özündə əks etdirən bir tələb hansı şəkildə aldandırılmasından asılı olmayaraq mahiyyəti etibarı ilə dəbbə pulunun ödənilməsinə dair tələb hesab olunur. Bu baxımdan da istər "gecikdirmə faizi", istər "cərimə məbləği", istər "xüsusi faiz", istər "şərtə bağlı faiz" və s. şəkildə adlandırılmasından asılı olmayaraq, əgər bu cür adlar altında tələb olunan məbləğ, öhdəliyin borclunun cavabdeh olduğu hallar səbəbilə pozulduğu təqdirdə kreditorun zərərinə baxılmadan qabaqcadan müqavilə ilə müəyyənləşdirlmişsə, bunun mahiyyəti etibarı ilə dəbbə pulu olduğu şübhəsizdir. Nəticə etibarı ilə, ödənilməli olab bir məbləğə müqavilədə "dəbbə pulu" deyildiyi üçün MM-in 462-467-ci maddələri tətbiq olunmur. Tələb olunan məbləğ mahiyyəti etibarı ilə MM-in 462-ci maddəsində nəzərdə tutulan xüsusiyyətləri özündə əks etdirdiyinə görə, həmin məbləğə MM-in 462-467-ci maddələri tətbiq olun.

## II. Mübahisənin Predmetinə Dair İşin Faktiki Halları

1. İş materiallarında olan müqavilələrdən görünür ki, Kredit (Borc) müqavilələrində kreditin qaytarılması ilə bağlı öhdəliyin pozulmasına görə borc alan üçün 2 ayrı ad altında borc verən kreditorun zərərinin olub-olmamağından asılı olmayaraq qabaqcdan müəyyənləşdirilmiş faiz həcmində pul ödəmək öhdəliyi nəzərdə tutulub. Bunlardan biri üçün, yəni müqavilə müddəti ərzindəki gecikdirmələrə görə hər günə **kreditin əsas məbləğinin qalığının** 0,2 faizi həcmində müəyyənləşdirilən cərimə faizi "dəbbə pulu" şəklində ifadə olunub. Digəri isə, müqavilə müddəti qurtardıqdan sonra və ya müqavilə müddəti qurtarmasa belə, borc vaxtı keçmiş kreditə aid edildiyi hallarda borcun qalığına tətbiq olunan 2 qat faiz şəklindəki cərimə isə sadəcə olaraq 34 faiz şəklində adlandırılıb.

2. Məhkəmələr qərarlarında gecikdirmə səbəbilə ödənilməli olan ilkin cərimə faizi üçün müqavilədə "dəbbə pulu" ifadəsi işlədildiyini əsas götürərək bu növ cərimə faizinə MM-in 467-ci maddəsini tətbiq ediblər, ancaq ikinci hal üçün nəzərdə tutulan cərimə faizi üçün müqavilədə "dəbbə pulu" ifadəsi işlədilmədiyinə görə MM-in 467-ci maddəsini tətbiq etməyiblər. Qeyd olunan 2-ci cərimə üçün "bu mahiyyəti etibarı ilə "dəbbə pulu" deyil, "müqavilə faizi"-dir" şəklində bir yanaşma düzgün deyildir. Çünki yuxarıda da qeyd olunduğu kimi ***dəbbə pulu onsuz da məhz elə müqavilədə nəzərdə tutulan hallarda ola bilər***. Üstəlik, dəbbə pulları fərqli üsullarda (məsələn bir dəfəlik ödənilməli olan məbləğ və ya faiz formasında olmayan bir tərzdə) də nəzərdə tutula bilərsə də, sözü gedən müqavilələrdə hətta hər iki dəbbə pulu eyni üsula, yəni ikisi də gecikdirməyə bağlı olaraq faiz şəklində nəzərdə tutulmuşdur.

3. Müqavilələrdə **<u>təkcə gecikdirilən məbləğin deyil</u>**, **<u>bütün öhdəliyin, yəni gələcəkdə ödənilməli olan əsas məbləğ və gələcək dövrlərdə əmələ gələcək faizlərin birlikdə hesablanan ümumi məbləğinin</u>** 0,2 % həcmində cərimənin ödəniləcəyi nəzərdə tutulmuşdur. Beləliklə, borc verən tərəfindən tərtib olunan və standart müqavilə şəklində bağlanmış olan bu müqaviləyə görə, borclu cədvəl üzrə aylıq ödənişi gecikdirdiyi təqdirdə gecikdirilən məbləğin deyil, hələ heç ödəniş vaxtı çatmamış gələcək ayların və illərin ümumi ödəniş məbləğlərinin də həcminin gündəlik 0,2 faizini ödəməlidir. Gələcək ayların və illərin ödənişinə faizlər də daxildir və bu faizlər ancaq həmin vaxt gəldiyi təqdirdə əmələ gəlir. Başqa sözlə, faizin aid olduğu müddət çatmadan faizin əmələ gəlməsi sadəcə olaraq mümkün deyildir. Buna görə də, müqavilədə sözü gedən bu şərtə görə, borc alan nəinki vaxtı çatmamış və gecikdirməmiş olduğu borc alınan qalıq məbləğinin, həm də bunlara əlavə olaraq gələcək dövürlərdə əmələ gəlməsi ehtimal olunan faizlərin ümumi məbləğinin yekun həcminin **gündəlik** 0,2 faizini ödəməlidir. Nəzərə alsaq ki, əvvəlcə alınan kreditlər manatla, daha sonradan devalvasiya gününə yaxınlaşdıqca

verilən kreditlər ABŞ dolları ilə olub və eyni yanaşma devalvasiyanın olmasına baxmayaraq davam etdirilib, onda bunun istismar təşkil etdiyini daha asan başa düşmək olar.

4. Bundan başqa, məhkəmələr mövcud hüquqi mübahisə aid müqavilələr üzrə faktiki olaraq faizə faiz tətbiq olunduğunu da nəzərə almamışdır. Belə ki, müqavilənin 2.2-ci bəndinə görə müqavilənin aylıq ödənişi gecikdirildiyi təqdirdə tətbiq olunan 0,2% dəbbə pulu ilə yanaşı həmin müqavilənin 5.5-ci bəndinə istinad olunaraq 2 qat faiz (illik 17% artırılaraq 34%, başqa sözlə, aylıq 1,4166 % artırılaraq 2,8333%) tətbiq olunur. Nəticə etibarı ilə, Müqavilə müddəti bitmədiyi halda (çünki ödəniş müddətinin 30 gün gecikdirilməsindən etibarən borc vaxtı keçmiş krditə aid olur), yəni aylıq ödənişin gecikdirilməsindən etibarən 30 gün müddət keçdikdən sonra həmin müqavilənin 5.5-ci bəndinə görə 2 qat faiz tətbiq oluna bilər. Bu isə, Müqavilənin 5.5-ci bəndinin həmin müqavilənin 2.2-ci bəndi ilə birlikdə nəzərdə aldıqda faizə fazi qadağasını nəzərdə tutan MM-in 445.7-ci maddəsinin tələblərinin pozulması deməkdir.

5. Ən azından işdə olan materiallardan elə görünür ki, bank tərəfindən sözügedən müqavilə şərtləri artıqlaması ilə tətbiq olunub. Belə ki, bank tərəfindən təqdim olunan 03.08.2017-ci il tarixli 0328/15/PB-2 saylı kredit müqaviləsi üzrə maliyyə arayışında dəbbə pulunun hesablanma gününə dair məlumatdan aydın olur ki, gecikdirmə müddəti 156 gün olmuşdur. Bu məlumata görə (yəni bankın özünün yazılı etirafındakı əsas götürüldükdə belə) günlük faiz məbləğini müəyyən edək. Müqaviləyə görə kreditin illik faizi 17%-dir və bankın özü tərəfindən sübut kimi təqdim olunan maliyyə arayışında isə qalıq məbləğ 24920,37 dollar göstərilib. Belə olan halda aylıq faizi tapmaq üçün illik faizi (17% ) bölək 12 aya (yəni ilin aylarına) = 1,4167%. Alınan bu məbləğ aylıq faiz (1,4167) miqdarını təşkil edir. Həmin bu aylıq faiz miqdarının günlük fazini müəyyənləşdirmək üçün də aylıq faizi bölürük ayın günlərinə, yəni 1,4167/30= 0,04722. Beləliklə, müqavilə fazinin günlük miqdarı 0,04722%-dir. Bu günlük faiz məbləğini ümumi ödənilməmiş qalıq məbləğinə, yəni 24920,37 dollar məbləğinə vurduqda (24920,37 x 0,04722) alınan məbləğ 11,76 dollar. Belə olan halda (yəni bankın özünün yazılı etirafı əsas götürüldükdə belə) günlük faiz məbləği olan 11,767$ x 156 = 1835,65 $ edir. Halbuki bank tərəfindən təqdim olunan maliyyə arayışında isə, bu məbləğ 11250,31 həcmində göstərilib.

6. Həmçinin, yenə nümunə kimi təhlil olunan bu maliyyə arayışından məlum olur ki, kredit müqaviləsinin müddəti bitməmiş və ya borc, vaxtı keçmiş kredit vəziyyətinə gəlməmişdən əvvəl bank tərəfindən 2 qat cərimə faizi hesablanmış və eyni vaxtda gündəlik dəbbə pulu da hesablanmışdır. Belə ki, yuxarıda da göstərildiyi kimi günlük faiz məbləği 11,76 dollar edir. Maliyyə arayışında isə, gündəlik

hesablanan faiz borcu məbləği 23,54 $, yəni 11,76 dolların 2 qatı həcmində göstərilib.

7. Digər bir pozuntu isə, odur ki, bu şəkildə tamamilə əsassız olaraq 2 qat faiz tətbiq olunduqda və hətta hər iki faiz eyni anda hesablanıldığı təqdirdə belə, qeyd olunan müddət ərzində əmələ gələn faiz miqdarının ümumi məbləği 11447,28 dollar edir. Belə ki, gecikdirmə günü 156 gün vurulur 23.54 üstəgəl 156 gün vurulsun 49.84, bərabərdir 3672,24+7775,04=11447,28 dollar. Halbuki bank tərəfindən təqdim olunan maliyyə arayışında bu məbləğ 19025,47 dollar həcmində göstərilib.

8. **Nəzərə alsaq ki, bu müqavilələr müqavilənin standart şərtləri sayəsində bağlanıb və xarici valyutada verilən kreditlərə belə bir yanaşma devalvasiyanın olmasına baxmayaraq davam etdirilib, onda sözü gedən 2 qat dəbbə pulu şərtinin digər dəbbə pulu ilə eyni vaxtda işlədilməsinin hüquqi əsaslılığı sual doğurur**. Belə ki, MM-in 420.2-ci maddəsinə görə, "*Müqavilənin standart şərti müqaviləyə daxil edilmiş olsa da, etimad və vicdanlılıq prinsiplərinə zidd olaraq müqavilənin digər tərəfi üçün zərərlidirsə, etibarsızdır. Bu zaman həmin şərtlərin müqaviləyə daxil edildiyi şərait, tərəflərin qarşılıqlı maraqları və sair nəzərə alınmalıdır*". Həmçinin, MM-in 420.3.5-ci maddəsinə görə *zərərin miqdarından çox olan məbləğin tələb edilməsinə dair razılaşma (zərərin əvəzinin ödənilməsinə dair yüksəldilmiş tələb)*" **şəklindəki müqavilənin standart şərtləri etibarsızdır**.

9. **Dəbbə pulunun istənilə bilinməsi üçün öhdəliyin pozulmasında borclunun təqsiri olmalıdır**. Belə ki, MM-in 462.2-ci maddəsinə görə, "*Əgər borclu öhdəliyin icra edilməməsi və ya lazımınca icra edilməməsi üçün məsuliyyət daşımırsa, kreditor dəbbə pulunun ödənilməsini tələb edə bilməz*". MM-in 443.7-ci maddəsinə görə, "*Əgər öhdəlikdə ayrı qayda nəzərdə tutulmayıbsa və ondan ayrı qayda irəli gəlmirsə, borclunun üzərinə yalnız qəsdən və ya ehtiyatsızlıqdan edilmiş hərəkətlər nəticəsində dəymiş zərərin əvəzini ödəmək vəzifəsi qoyulur*". Həmçinin, MM-in 445.5-ci maddəsinə görə, "*Əgər öhdəlik borclunun təqsiri olmadan baş vermiş halların nəticəsində icra edilməzsə, bu, gecikdirmə sayılmır*".

Nəzərə almaq lazımdır ki, xarici valyutada olan pul öhdəliklərinin borclularının, xüsusilə də gəliri manatla olan borcluların devalvasiya nəticəsində ödəniş qabiliyyətini əhəmiyyətli dərəcədə itirmələri onlara istinad oluna bilməyən obyektiv səbəblərə görədir. Yəni bir şəxsin təqsirli hesab oluna bilinməsi üçün həmin şəxsin hüquqa zidd nəticənin əmələ gəlməsində iradəsinin rolu olmalıdır. Başqa sözlə, təqsirin bir şəxsə istinad oluna bilinməsi üçün hüquqa zidd nəticənin əmələ gəlməsində həmin şəxsin iradəsinin rolu olmalıdır. Buna görə də, anlaqlığı olmayan şəxslərin təqsirli olmaları da hüquqi baxımdan qəbul edilmir.

İndi xarici valyutada olan pul öhdəliklərinin borclularının devalvasiya nəticəsində ödəniş qabiliyyətini əhəmiyyətli dərəcədə itirmələri və bu səbəblə də

sözügedən öhdəliklərinin icrasını gecikdirmələri, aydın məsələdir ki, onların iradələri xaricində baş verən bir nəticədir. Bu isə, xarici valyutada olan pul öhdəliklərinin devalvasiya nəticəsində gecikdirilməsində borclunun təqsirli olmadığını deməyə əsas verir. Buna görə də qeyd olunan belə bir şəraitdə xarici valyutada olan pul öhdəliklərinin borclularının kəskin devalvasiyaya baxmayaraq ödəniş qabiliyyətini əhəmiyyətli dərəcədə itirmədiyini və bu səbəblə də kredit borcunu ödəmək imkanı olduğu halda icra etmədiyini iddia edən kreditor bu iddiasını sübut etməlidir. Çünki əks halda qeyd olunan (devalvasiya) şəraitdə xarici valyuta borclularının (xüsusilə də gəliri manatla olan borcluların) təqsiri olmadan ödəniş qabiliyyətlərini əhəmiyyətli dərəcədə itirdikləri bu səbəblə də ödənişlərin gecikməsində təqsirlərinin olmadığını qəbul etmək lazım gəlir.

**NƏTİCƏ:**

1- **Gecikdirmə halında tətbiq olunan 2 qat faiz şərti də mahiyyəti etibarı ilə dəbbə puludur;**
2- **Müqavilə müddəti ərzində gecikdirmə səbəbilə eyni anda iki ayrı ad altında faiz ödənilməsini nəzərdə tutan və bunun nəticəsində də sözü gedən faizlərdən ən azından birinin məbləğinin artmasına səbəb olan müqavilə şərtləri etibarsızdır;**
3- **İstənilən halda bankın qeyd olunan şərait daxilində borcludan sözü gedən müqavilə şərtləri daxilində hansı ad altında olmasından asılı olmayaraq dəbbə pulunu istəməsi açıqca hüquqdan sui-istifadə təşkil edir (MM.m. 5.3, 560.3.3). Sui-istifadə edilən hüquq isə nəzərə alınmaz və qorunmaz;**
4- **Kəskin devlayvasiya nəticəsində xarici valyuta borclularının ödəniş qabiliyyətlərini əhəmiyyətli dərəcədə itirmələri onların iradəsi xaricində və onlara istinad oluna bilməyən səbəblərə görə baş vermişdir. Buna görə də sözü gedən öhdəliklərin vaxtında icra edilməməsində borcluların təqsiri olmadığı ehtimalı (prezumpsiyası) əsas götürülməlidir;**
5- **Alınan kreditlərin devalvasiya nəticəsində ödənilmədiyi də nəzərə alındıqda:**
   - **müqavilənin standart şərtlərinə istinad olunaraq borcludan əlavə olaraq həm də eyni vaxt ərzində fərqli iki ad altında dəbbə pulunun hesablanılaraq istənilməsi,**
   - **cədvəl üzrə gecikdirlən aylıq ödəniş məbləğinə görə borclunun gələcək dövürlər üzrə olan bütün ödənişlərin, o cümlədən gələcəkdə əmələ**

**gəlməsi ehtimal olunan faiz məbləğlərinin də əlavə olunaraq hesablanan bütün ümumi qalıq məbləğinin həcminə görə günlük 0,2%-in hesablanmasını nəzərdə tutan**

**müqavilənin standart şərtləri etimad və vicdanlılıq prinsiplərinə ziddiyyət təşkil edəcək dərəcədə borcalan qarşı tərəf üçün zərərlidir və bu səbəblə də etibarsız hesab olunmalıdır.**

**BDU Hüquq fakültəsinin**
**Mülki Hüquq kafedrasının dosenti**
**h.f.d, Sərvər Süleymanlı**